

Vüqar RAHİ

***

İzn ver, ey gözəl afət, ölək eşqində sənin,
Dirilək, tazədən atsın ürək eşqində sənin.

Ağladıq vəslivə bəs qədri fərağında yetər,
Ki, gərəkdir daha, ey gül, gülək eşqində sənin.

Nəzəri–mərhəmətin kəm degil əğyarlərə,
Biz də bir fikrivə hərdən gələk eşqində sənin.

Şövqi–vəslinlə coşan eşqdə bir biz deyilik,
Dağıdır aləmi, ey gül, külək eşqində sənin.

Müntəzir olmaya kimdir sənə taətdə bəşər?
Sən o kəssən, baş əyibdir mələk eşqində sənin!

Yetən hər aşiqin, ey can, sənə bir layiqi yox,
Sənə layiqli yetişsin gərək eşqində sənin!

Ərseyi–eşqə çağır, cümlə buyursun gəlsin,
Kim olur Rahiyə nisbət görək eşqində sənin?

***

Möhnəti–eşqimi kim çəksə də gər, naşı çəkər,
Onu qiymətdə ki mizani–fələk daşı çəkər.

Zahida, məscidə çəkməz məni cənnət həvəsi,
Künci–mehrabə bu dilbər sənəmin qaşı çəkər.

Gül üzünənginə nisbətdi, şəfəqdən götürüb
Surəti–yarımı bir rəng ilə nəqqaşı çəkər.

Rəng alıb qanlı cigərdən fələyin lövhəsinə,
Mehri–rüxsarıvı hər gün gözümün yaşı çəkər.

Könlümün yetməsə imdadına bir Nuhi–nəci,
Çıxmayıb sahilə tufani–bəla başı çəkər.

Vadiyi–eşqdə gər çəkməsə bir kimsə qəmin,
Rahinin dərdini Məcnun kimi yoldaşı çəkər.

***

Hər kim ki Əlidən yazıb eşqində söz açdı,
Köksündə könül hüsni–Xudavəndə göz açdı.

Ey xəstə könül, şahi–Nəcəf səmtinə yol tut,
Hər müşkülün aşiqlərin aləmdə tez açdı.

Rüxsari–Əlidə elədi həqq təcəlla,
Musayi–dilə vadiyi–Sinadə üz açdı.

Dərk etdi könül nükteyi–əsrari–Xudanı,
Ta eşqi–Əlidən yolunu həqqə düz açdı!

Rahi, məni məst etdi meyi–cami–həqiqət,
Qəlbimdə bu gün ali–Əli mehri iz açdı.

***

Ünvanımız sənə, deyəsən, düz verilməyib,
Yoxsa bu söhbətə sənə bir üz verilməyib!

Bəhsi–kəmali–hüsn aparan şair olmalı,
Lal ol, danışma, sus, sənə bir söz verilməyib!

Hər kim cəmali–yarımı qəlbində görməsə,
Görməz həqiqəti, ona çün göz verilməyib!

Dəryayi–cəhl qərq eləyib öz bəlasına,
Musa kimi bu gün sənə mö'cüz verilməyib!

Şərhi–bəlayi–eşqdə yandırdı aləmi,
Həqdən bu Rahiyə deməyin, köz verilməyib!

***

Mülki–qəzəlin şe'rdə bir şahı mən oldum,
Bəhri–qəzəlin dəhrdə səyyahı mən oldum.

Həmrah nədir, olmadı bir kimsə Xəlilə,
Bir tək vələdi–Əhmədin həmrahı mən oldum.

Mən nəzmdə göydən günü gündüz geri çəkdim,
Zülmət gecə barmaqla bölən mahı mən oldum.

Çoxları qəzəl haqqında qəzəl yazdılar, amma
Rə'na qəzəlin şövq ilə məddahı mən oldum.
Çün şe'rdə mən dərsimi Xaqanidən aldım,
Aləmləri şe'riylə yaxan ahı mən oldum.

Dövrümdə yazan olmadı bir kimsə mənimtək,
Şe'r aləminin, Rahiya, allahı mən oldum!

## SƏNSİZ OLMADI!..

Mən uşaq deyildim, qapılım hissə,
Niyyətin nədirsə, mənzilin odur.
Əynin qalın idi, üşümürdünsə,
Niyə ürəyimə vururdun odu?

Qəm-qüssə onsuz da çox dadıb məni,
Nə əldə elədin aldadıb məni?!
Bu kövrək vaxtımda ağladıb məni,
Sən də mi güldürdün doğmanı, yadı?

Bəs yerin ayrıydı bu dində sənin,
Bumu bəndəliyin əslində sənin?
Hanı, tanrın idim vəslində sənin,
Eşqim ürəyinə niyə dolmadı?

Gedirəm, zamanım tükəndi, doldu,
Sayəndə yolçuyam, nəsibim yoldu...
Atamsız, anamsız, balamsız oldu,
Lənətə gələsən, sənsiz olmadı!..

## MƏN SƏNİ SEVDİYİM YAŞIMDA QALDIM

Gözlərim görmədi çiçək fəslini,
Yazıma çıxmadım, qışımda qaldım.
Göylər kül ələdi başıma mənim,
Mən sənsiz əlləri başımda qaldım.

Onsuz da əzəldən tənhaydım, təkdim,
Bir ümid eşqinə min ümid əkdim.
Kimsə bilmədi ki, sənsiz nə çəkdim,
Bəxtimin elçilik daşında qaldım.

Demə, "unudaydın, eyləyəydin tərk",
Mən ola bilmədim sənin kimi bərk.
İllər dəyişmədi məni sənintək,
Mən səni sevdiyim yaşımda qaldım.

## DƏLİ OLMAĞIMA BİR ADDIM QALIB

Bilirdim getdiyim bu yol nə yoldu!
Sağında nələr var, solu nə soldu.
Necə demişdimsə, elə də oldu:
"Dəli olmağıma bir addım qalıb."

Çatdınmı arzuna sevərək onu?
Çox dedim, ürəyim, eləmə bunu...

Bax bu da axırı, bax bu da sonu:
Dəli olmağıma bir addım qalıb.

Gözümün yaşında boğuldum, batdım,
Bu nə cür sevgidir, İlahi, daddım?!
Vüsala yetməyə ikicə addım,
Dəli olmağıma bir addım qalıb.

## MƏNİ ƏLLƏRİMDƏN ASDIN, İLAHİ.

Yanan ürəyimə bir az su çilə,
Həsrətin odunda bişdi ürəyim.
Fikrini etməkdən balalarımın,
İlahi, köksümdə şişdi ürəyim.

Yağdır üzərimə buludlarını,
Əmrində durmağa göy nədir axı?
Ya yandır biryolluq ölüm, qurtarım,
Ya söndür, ürəyim göynədir axı.

Nə səbir qalıbdı, nə də ki dözüm,
Ərşə çəkilibdi gecə yuxum da.
Söylə, nə vaxtadək təsəlli gəzim
Gündüz şəkillərdə, gecə yuxumda?

Yetər hər duada sənə açılan
Ovcuma boylandın, susdun, İlahi,
Mən sənə neylədim, günahım nədir?
Məni əllərimdən asdın, İlahi!

Yanan ürəyimə bir az su çilə,
Həsrətin odunda bişdi ürəyim.
Fikrini etməkdən balalarımın
İlahi, köksümdə şişdi ürəyim.

## MƏN QƏRİBƏ BİRİYƏM

Mən qəribə biriyəm bu qəribə həyatda.
Saxla sən bunu yadda!
Mən sizlərdən deyiləm, yiyənizsə də yiyəm,
Mən sizlərdən fərqliyəm...
Mən qəribə biriyəm bu qəribə həyatda.
Ola bilsin, mən adda
çox olan bir adamlar,
bir ömrü yaşayanlar,
bu adı daşıyanlar
olmuş, olub, olacaq!
Lap tutaq ki, bu dünya eyni adla dolacaq...
Onlar mən deyiləm ki, mən qəribə biriyəm
bu qəribə həyatda.
Mən işıq sürətilə min illərlə ötüşən,
min ayətlə görüşən,
üzünü görmək üçün,
başına dönmək üçün
uzun – uzun yol gələn,
göyün sinəsin dələn –
yeddi qatın deşənəm.
– Zənbil ilə düşənəm
bu dünyaya səninçün.
Ey yaranan mənimçün,
fəqət mənim olmayan!
Mən qəribə biriyəm...
Nə qədər ki diriyəm,
mən belə də olacam,
mən belə də qalacam,
mən belə də saralıb, mən belə də solacam.
Mən dəyişən deyiləm.
Mən əyişən deyiləm
xəyalından yad ilə.
Nolar, məni yad elə –
Sən də məni ara, gəz,
sən də çıx axtarışa,
sən də məni soraqla.
Necə ki, mən gəzirəm səni yalın ayaqla.
Necə ki, mən dəliyəm, sən də elə dəli ol!
Elə ol ki, mənim ol!
Sən də bir az başqalaş,
Sən də bir az mənimtək
ağlını itirib çaş!
Mənə sübut elə ki, mən qəribə deyiləm,
Qəribə olan bizik,
sadəcə, ikimizik.
Bizdən törənəcəkdir bütün qəribəliklər.
...O şirin körpəciklər,
Bu qəribə həyatda bizə çıxan şəriklər
Yalnız bizdən olacaq.
Qəribə olan həyat elə bizlə dolacaq.
Qəribədir, eləmi?
Dediklərim hər nədir, bəli, çox qəribədir.
Çünki mən qəribəyəm bu qəribə həyatda.
Saxla sən bunu yadda!
Mən sizlərdən deyiləm, yiyənizsə də yiyəm.
Mən sizlərdən fərqliyəm,
Mən sizlərdən deyiləm!